# Rektor: Azərbaycan Memarlıq və İnşaat Universiteti COP29 öncəsi qarşıya qoyduğu vəzifələrə nail olacaq

COP29-un ölkəmizdə keçirilməsinin böyük əhəmiyyəti var. Bu, ilk növbədə, ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunun göstəricisidir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru professor Gülçöhrə Məmmədova jurnalistlərə müsahibəsində deyib.

Azərbaycanın artıq növbəti bir qlobal tədbirə ev sahibliyi etdiyini və onu ən yüksək səviyyədə keçirə biləcəyini deyən rektor universitet tələbələrinin də bu hərəkata qoşulduğunu qeyd edib: "Onlar kurs işlərində və layihələrində COP ideyalarını, ekologiyanın qorunması və iqlim dəyişikliklərinin fəsadlarının aradan qaldırılması yollarını əks etdirirlər. Ümid edirəm ki, tələbələrimiz bu ideyaları daim rəhbər tutacaqlar".

Professor G.Məmmədova, həmçinin vurğulayıb ki, universitetin məzunları olan inşaatçılar, memarlar, şəhərsalma mütəxəssisləri ekologiya, iqlim dəyişmələri mövzusu ilə sıx bağlıdırlar və onların tələbəlik illərindən bu mövzunu başa düşməsi, dərk etməsi, öz rollarını bu qlobal problemin həllində görməsi böyük əhəmiyyət kəsb edir. Bugünkü tədbir məhz bu aktual məsələyə həsr edilib. Azərbaycan Memarlıq və İnşaat Universiteti də bu baxımdan qarşıya qoyduğu vəzifələrə nail olacaq.

**AZƏRTAC**
**2024, 21 oktyabr**